**AZƏRBAYCAN MƏDƏNİ İRSİNİN DAĞIDILMASI VƏ ƏLƏ KEÇİRİLMƏSİ**

Sənəd 9147
27 iyun 2001-ci il

Məsləhət üzrə təklif
Rafael Hüseynov cənabları və başqaları tərəfindən təqdim edilmişdir

Hazırki təklif Assambleyada müzakirə edilməmişdir və yalnız onu imzalayan üzvlər tərəfindən təsdiq edilir

Azərbaycan Respublikasına qarşı törədilmiş Ermәni təcavüzünün faciəvi nəticələrindən biri, ölkənin ərazisinin 20 % -nin işğal edilməsindən başqa, Azərbaycanın milli və mədəni irsinin dağıdılması və ələ keçirilməsidir. Beynəlxalq təşkilatların bir çox çağırışlarına baxmayaraq, Ermənistan Azərbaycanın işğal edilmiş regionlarda qalmış mədəni sərvətinin təhlükəsizliyinin təmin edilməsi sahəsində heç bir konstruktiv addım atmamışdır.

500 tarixi memarlıq abidəsi və 100-dən çox arxeoloji abidə, 22 muzey, 4 incəsənət qalereyası, 927 kitabxana, 85 musiqi məktəbi, 4 dövlət teatrı Azərbaycanın işğal edilmiş ərazilərində qalmışdır.

Hərbi əməliyyatların bir nəticəsi olaraq, Kəlbəcər və Laçında olan Tarixi və Regional Tədqiqat Muzeyləri, Şuşa və Qarabağın tarixi muzeyləri, Zəngilanda olan Daş Abidələr Muzeyləri və həmçinin, bir çox digərləri oğurlanmış və dağıdılmışdır.

İşğal nəticəsində Bürünc dövrünün təkrarsız abidələri - təxminən 100 qəbir təpəciklərindən ibarət olan Xocalı kurqan sahəsi yerlə yeksan edilmişdir.

Assambleya qiymətli abidə sayılan, insan sivilizasiyasının ən qədim yerlərindən birisi olan Azıx mağarasının səhra silah anbarına çevrilməsindən dərin təşviş hissi keçirir.

İncəsənət və ədəbiyyat sahəsində Azərbaycana məxsus işlərin qanunsuz olaraq Ermənilər tərəfindən bir sıra zəbt edilmə halları Azərbaycan Respublikasının Müəlliflik Hüququnun Müdafiə edilməsi Agentliyi tərəfindən yoxlanılaraq təsdiq edilmiş və bütün bunlar Azərbaycan xalqının ciddi narahatçılığına səbəb olmuşdur.

Bir çox əsrlər boyu yaradılmış olan mədəni irsin ayrıca götürülmüş millətə və ya ölkəyə mənsub olması ilə bərabər, həmçinin, bütün dünya mədəniyyətinin tərkib hissəsi olduğunu nəzərə almaqla, Parlament Assambleyası Nazirlər Komitəsinə müraciət edir ki, Azərbaycanın mədəni irsinin dağıdılması və qanunsuz olaraq mənimsənilməsini dayandırmaq üçün zəruri olan addımlar atsınlar.

İmzalayanlar : [1]
Huseynov R., Azerbaijan, EPP/CD
Aliyev B., Azerbaijan, SOC
Aliyev G., Azerbaijan, EDG
Angelovicova, Slovakia, SOC
Gamzatova, Russia, UEL
Hajiyeva, Azerbaijan, EPP/CD
Huseynov A., Azerbaijan, EDG
Kalkan, Turkey, EDG
Marxer, Liechtenstein, EPP/CD
Polozhani, " the former Yugoslav Republic of Macedonia ", EDG
Saglam, Turkey, EPP/CD
Seyidov, Azerbaijan, EDG
Shakhtakhtinskaya, Azerbaijan, EDG
Tanik, Turkey, EDG
Taylor, United Kingdom, EPP/CD
Telek, Turkey, EDG
Vakilov, Azerbaijan, EDG
Vanoost, Belgium, SOC

[1] SOC: Socialist Group
EPP/CD: Group of the European People's Party
EDG: European Democratic Group
LDR : Liberal, Democratic and Reformers' Group
UEL: Group of the Unified European Left
NR: not registered in a group